**UOT 78**
https://doi.org/10.59849/2311-8482.2025.4.239

**SAMİRƏ ƏLİYEVA***

# İTALİYA VƏ FRANSADA ORTA ƏSR HEYKƏLTƏRAŞLIĞI

*Məqalədə avropa ölkələrinin orta əsr heykəltəraşlığı geniş tədqiq olunmuşdur. Orta əsr heykəltəraşlığında Florensiya heykəltəraşlıq məktəbi Brunelleskinin rolu araşdırılmışdır. Müəllif belə bir nticəyə gəlmişdir ki, orta əsr heykəltəraşlığında insan vəya hərhansı bir heyvan təsvirinin yaradılması boyakarlığa və qrafikaya nisbətən məhdud imkanlara malikdir.*

***Açar sözlər:*** *heykəltəraşlıq, Florensiya, Brunelleski, orta əsr, qrafika*

## Giriş

Heykəltəraşlıqda insan və ya hər hansı təsvir obyekti həsmli yaradılır. Adətən insan, bəzən heyvan təsvir edən heykəltəraşlığın boyakarlığa və qrafikaya nisbətən imkanları məhduddur. İndiyə kimi əsasən iki cür heykəl məlumdur: birinci qisim heykəllərə həcmli və ya dəyirmi heykəllər deyilir ki, bunlara hər tərəfdən baxmaq mümkündür İkinci qisim heykəllər isə səth üzərində qabartma şəklində yaradılır. Belə heykəllərə isə relyef deyilir.

## Əsas məzmun

Florensiya heykəltəraşlarının 2-ci nəsli yaradıcılıq fəaliyyətinə, artıa realistik incəsənətin güclü binövrəsi qoyulmuş, Toskananın memarlıq və plastikasında möhtəşəm əsərlər – Florensiya kilsəsinin gümbəzi (Brunelleski), tunc qapılar (Qiberti), Donatellonun bir çox işləri yarandı bir dövrdə başlayırlar. Realistik prinsiplərin sonraki inkişafı, onların formalarının böyük yumşağlıq və incəlik istiqamətində emalı sahəsində böyük rolu ilk növbədə della Robbia rəssamlar ailəsi oynamışdır. Toskan heykəltəraşlığında sənətkarların I-ci və II-ci nəsilləri arasında əlagələndirici rolu məhs Luka della Robbia (1399/1400-1482) oynamışdır. Onun incə və lirik obrazları, analıq mövzusu açığlanan, insan hissinin istiliyi ilə aşılanmış əsasən madonnanın körpə ilə təsvirləri şən və təmtərağlı idilər, geniş kütlə tərəfindən hasant qavranılırdı.

İntibah dövrünün bir çox heykəltəraşları kimi, Luka della Robbia da öz bədii yaradıcılığına emalatxanalarda başlamış, lakin mərmər üzərində heykəltəraşlığla erkən məşqul olmağa başlayır. Onun ilk əsərlərindən biri, 1431-1438-ci illər arasında Florensiya kilsəsinin öxucuları kaedrasında yernə yetirilmiş relyeflərdir. Kafedranın arxitravında yazılmış kilsə psalmasının sözləri – "İlahini tərif edirik", müxtəlif relyeflərlə ilüstrasiya olunmuşdur. Onlarda trubalarda, arfalarda, timpanlarda, orqanda gənc musigiilərin çalması və xor oxuması təsvir olunmuşdur. Kafedranın yan tərəflərində sənətkar, psalmaları oxuyan mələklərin poetik təsvirlərini vermişdir. Lakin bu sənətkarın və onun məktəbinin ən böyük xidməti İntibah heykəltəraşlığının yeni tipinin yaradılmasında olmuşdur. O əvvəllər yalnız aptek qabların, krujkaların, boşqab, dibşək, vaz və digərlərinin hazırlanmasında istifadə edilən minalı tehnikanı heykəltəraşlıqda tədbiq edir. Qədim dövrlərdən assuriyalılara və farslara məlum olan mina tehnikası, orta əsrlərdə İspaniyaya və ilk növbədə Mayorka adasına gətirilir (bunun nəticəsində o mayolika adını almışdır). Bu adada həmin tehnika yüksək inkişaf zirvsinə çatır. Pizan dənizçiləri bu tehnikanı İtaliyaya gətirirlər, və artıq XIV əsrdə öz ucuzluğu sahəsində bu tehnika Florensiyada, Siyenada, Umbriyada, Venesiyada və Urbinoda geniş yayılır.

Luka della Robbia ilk olaraq dairəvi heykəltəraşlıqda və relyeflərdə mina tehnikasını tədbiq edərəq, onların memarlıq ilə əhəngdarlığına nail olmuşdur. Mayolikadan olan göy, ağ, arı, yaşıl və açıq-gəhvəyiçalarlı medalyonlar binaların divarlarını xeyli canlandırırdılar. Luka della Robbianın

bu tehnikada ilk əsəri – madonnanı, körpəni və mələkləri tsvir edən lünetdir (Florensiya, Milli muzey). O həmçinin Patsi kapellasının dekorativtərtibatında iştirak etmişdir. Çiçək və meyvələrdən ibarət olan əlvan çələnglərlə (qirlyandalarla) əhatə olunmuş sənətkarın çoxsaylı mayolikalı relyefləri hazırda bir çox Avropa muzeylərində saxlanılır.

Luka della Robbianın qardaşı uşağı olan Andrea della Robbia (1435-1525/28) yalnız mayolika tehnikasında çalışaraq bu sahədə böyük kamilliyə çatmışdır. Bu sənətkar barekyeflərdə demək olar ki fiquru fondan ayraraq, ona müstəgil plastik mövcudluq vermiş, bununlada onun həyati reallığını artırmışdır. O həmcinin mayolikadan yernə yetirilmiş dairəvi heykəltəraşlığın da müəllifidir. Onun məşhur əsərləri içərisində, Brunelleski tərəfindən tikilmiş Florensiya Tərbiyə evinin arkadasını bəzəyən, bələylənmiş körpələri təsvir edən relyef təsvirli medalyonlardı. Əlvan-göy fonda təsvir edilmiş uşaq fiqurları gğzəl hyati hislə aşılanmışdılar. Andrea dela Robbianın yaratdığı mayolikalı heykəltəraşlıq qruppu – "Məryəmin Elizavetta ilə görüşü" (1491) daha citdi üslubda yernə yetirilmişdir.

XV əsrin ortalarında və 2-ci yarısında Florensiyanın ən mühüm heykəltəraşları Bernardo Rossellinr, Deziderio da Settinyano və Antonio Rossellino olmjuşdur. Bernardo Rossellino (1409-1464), Mikelotso kimi öz yaradıcılığına memar kimi başlamışdır. Belə ki, o Albertiyə Florensiyada Ruçellay sarayının inşaasında kömək etmişdir. Onun mühüm yaradıcılıq nailiyyətləri sırasına, 1444-1460-cı illər arasında yaradılmış qəbirüstü abidələr aid edilir. Onlar içərisində Florensiyasındaki Santa Kroçe kilsəsindəki humanist Leonardo Bruninin məqbərəsini (1444) xüsusi ilə geyd etmək lazımdır. O, bu tip tikililərin sonrakı inkişafında klassik nümunə olmuşdur. Leonardo Bruni əlində yaratdığı kitabı – "Florensiyanın tarixini" tutmuş vəziyyətdə təsvir etmişdir.

Bernardonun qardaşı və şagirdi olmuş Antonio Rossellino (1427-1479) XV əsrin 2-ci yarısının ən istedadlı heykəltəraşlardan biri olmuşdur. Hummanist Matteo Palmyerinin büstündə (1468; Florensiya, Milli muzey) sənətkar özünü istedadlı portretçi kimi biruzə vermişdir – sənətkarın qırışlı sifəti çox canlı və real təsvir olunmuşdur. Florensiyadaki San Minyato kilsəsindəki kardinal Portuqalskinin məqbərəsi önün ən yaxşı işləri sırasına aiddir. Geniş Renessans arkası sarkofaqlı postamenti ahatə edir; uçan mələklərin fiqurları madonnanın təsviri verilmiş dairəvi barelyefi saxlayan ümumi kompozisiyaya daxil edilmişdir. Fonun əlvan rəngləri, ağ və qızılı rəngli mələklər, müxtəlif rəngli daşlardan qurulmuş, üzərinə sarkofaq qoyulmuş plitə, çiçəklənən çələnglərlə əhatə olunmuş kəllə təsvirli sokol – bütün bunlar dekorativ bolluq təəssüratı yaradırlar.

Antonio Rossellino həmçinin çoxsaylı mərmər relyeflərin müəllifidir. Onlar arasında "Madonna körpə ilə" relyefini xüsusən geyd etmək lazımdır. İncə tehnikada yernə yetirilmiş bu relyefdə sənətkar sifət cizgilərini, paltar qırışlarını, işıq-kölgə təzadlarını böyük ustalıqla yernə yetirmişdir.

XV əsrin sonlarında fəaliyyət göstərmiş ən iri Florensiya heykəltəraşları Antonio Pollaoylo və Andrea olmuşdular. Antonio Pollayolo (1429-1498) – heykəltəraş,boyakar və qravyuraçı olmuşdur. O sifarışlə Romada da çalışmışdır. Zərgərlik sənətkarlığı tehnikası öz izini yalnız onun heykəltəraşlığında deyil, eyni zamanda qrafika və boyakarlığında da qoymuşdur. Sənətkar bir sıra boyakarlıq əsərləri yaratmışdır. Onlar içərisində ən məşhurları "Aslanı, hidranı və Anteyi öldürən Qerqules" və "Müqəddəs Sebastyan" əsərləridir. Sonunçu əsər, rəssamın perspektivanı, rakurs və anatomiyanı neçə peşəkar əldə etdiyini aydın şəkildə nümayiş etdirir. Sənətkar burada dini süjeti yalnız zahiri bir səhnə kimi istifadə etmişdir. Antonio Pollayolonun əsərləri digər rəssamalrın diqqətlərini özlərinə cəlb etmiş və bu əsərlərin əksəriyyəti onlar tərəfindən kopiya edilmişdir. Sənətkarın "On çılpağın döyüşünü" əks etdirən mis üzərində qravyurası isə hərəkətlərin verilməsinin ekspressiyası, çılpaq bədənin böyük anatomik dəgikliklə əks olunması ilə hətda Mikelancelonun diqqətini də özünə cəlb etmişdir.

1493-1498-ci illərdə o, IV Sikst və VIII İnnokenti papalarının (Roma, müqəddəs Pyotr kilsəsi) 2 möhtəşəm tunc məqbərələr yernə yetirmişdir.

Son kvatroçento üslbunun istedadlı nümayəndələrindən biri də Andrea Verrokkyo (1435/36 - 1488) olmuşdur. Öz dövrünün görkəmli sənətkarlarında biri olmuş Andrea Verrokkyo, Mediçi evinin baş heykəltəraşı olmuşdur. Bu ailə üçün o, çoxsaylı sifarişlər yernə yetirmişdir. Boyakar, heykəltəraş və peşələr sahəsində gözəl sənətkar olan Andrea Verrokkyo böyük popularlıq qazanmışdır. Onun emalatxanası yalnız Florensiyanın bədii həyatının əsas mərkəzlərindən biri deyil, eyni zamanda özünəməxsus bədii laboratoriya olmuşdur. Bu laboratoriyada boyakarlıq, rəsm, dəmir tökmə sənəti ilə yanaşı, anatomiya, riyaziyyat, perspektiva və s. öyrənilirdi.

Verrokkyo böyük dəgikliklə insan bədənini öyrənmiş və sonradan öz heykəllərində böyük reallıqla və incəliklə , Lorenso Mediçi sarayının zadəgan zövgünə cavab verən əsərlər yaratmışdır. Onun azsaylı boyakarlıq işləri (onlar içərisində “İsanın xaş suyuna çəkilməsi”) öz düşüncəliyi və quruluğu ilə fərqlənir. Sənətkarın yaradıcılığında əsas yeri tuncda yernə yetirilmiş heykəltəraşlıq əsərlər tutmuşdular.

1476-cı ildə Verrokkyo, ilk çağlarda Kareci villanın fəvvarəsi üçün nəzərdə tutulmuş, lakin sonradan Palatso Vekkyoda (indi Florensiyanın Milli muzeyidə) quraşdırılmış Davidin kiçik tunc heykəlidir. Donatellonun sadə və poetik “David” obrazından fərgli olaraq, Verrokkyonun heykəlində özünəməxsus incəliyə və obrazın zahiri effektliyinəmeillik nəzərə çarpır. Bununlada XV əsrin sonlarına xas olan yeni və səciyyəvi gözəllik idealı ifadə olunmuşdur. Davidin fiqurunun günclü görkəmi, qısa qılınc bu siluetə müəyyən gərginlik və geyrisakitlik verir.

1472-ci ildə Verokkyo San Lorenso kilsəsində Covani Pyero Mediçinin məqbərəsini tamamlayır. Bu gözəl əsərində o, ənənəvi erkən-renessans məqbərələrinin tipindən uzaqlaşaraq, fiqurlu təsvirlərdən tam imtina edir. Sarkofaq bitki motivli ornamentlə zəngin bəzədilmişdir, sarkofaq və arkanın arxivoltu arasında olan azad məsafə incə rəsm reşotkası ilə doldurulmuşdur.

1470-ci ilin sonlarında Verrokkyo Or-San-Mikele kilsəsinin fasadının nişalarında biri üçün böyük tunc qrupu – “İsa və apostol Foma” yernə yetirir. İsanın və Fomanın jestləri gözəl və ifadəlidir; onların geyimləri əzlmiş və dərin qırışlıdır. Bunun nəticəsində boyakarlıq kontrastları yaranır və fiqurların daxili dinamika hissi güclənir. Burada da heykəltəraşlığın onu əhatə edən memarlıq mühiti ilə olan ahəngdarlığı böyük diqqət doğrur.

1479-1488-ci illər ərzində Verrokkyo Venesiya kondotyeri Bartolomeo Kolleoninin atlı abidəsi üzərində çalışır. Bu abidə artıq heykəltəraşın ölümündən sonra tuncda tökülmüşdür. Bu abidə, Donatellonun “Qattamelatası” kimi, İntibah dövrünün at abidəsinin klassik nümunəsi olmuşdur. Sakit və özünə arxayın olan Qattamelatadan fərqli olaraq, Kolleoninin fiquru böyük daxili gərginlik ilə aşılanmışdır. Tunç şlemdə verilmiş kondotyerin sifətində ifadəlik, döyşkənlik, gəsbkarlıq nəzərə çarpır. Atın vüqarlı hərəkəti böyük ifadəliklə verilmişdir. Atın başı, onun qırışlarda verilmiş güclü boynu, şişmiş venaları böyük anatomik dəgikliklə və bədii ekspressiya ilə yernə yetirilmişdir.

Abidə San Covanni e Paolo kilsəsinin yanındaki meydanda, hündür postament üzərində, “Qattamelatadan” fərqli olaraq, məbədin düz yanında quraşdırılmışdır. Meydanın böyük ölçüdə olmaması səbəbdən, abidə yaxın məsafədən qavranılır.

XVI əsrin əvvəlində sənətlər sintezinin yeni növü ahəngdar vəhdət təşkil edir. O, orta əsrlər sənətindən fərqli olaraq memarlığa münasibətdə təsviri sənət və heykəltəraşlığın eyni hüquqlu olduğunu təsbit edir. Təsviri sənət və heykəltəraşlığın memarlıq sənətinin ciddi tabeliliyindən qurtulması eyni zamanda onların müstəqil dirçəlişinə və portret, mənzərə, tarixi təsvir kimi yeni janrların inkişafına təkan verir.

Yüksək İntibah incəsənətinin nikbin xüsusiyyəti onun realizm ənənələrinə sadiqliyi, sintez meyli, ümumiləşdirmək amalı, niyyətlərinin ahəngliyi Avropa təsviri mədəniyyətinin bu mərhələsinin

təkrarolunmaz özünəməxsusluğunu təşkil edir. Hələ müasirləri bu sənətin əzəmətini qeyd edirdilər. Vazari onu “Yeni İncəsənətin ən dəyərli, ən məşhur əsərlərinin yüksəldiyi ali təkamül pilləsi” kimi səciyyələndirirdi.
İtaliya memarlığı tarixində Mikelancelo xüsusi yer tutur. Bir tərəfdən dahi sənətkar heykəltəraşlıq, təsviri sənət və memarlıq yaradıcılığında İntibah ideyalarını tam dolğunluğu ilə əks etdirmiş, digər tərəfdən o, yenicə yaranan barokko üslubunun carçısı olmuşdur. Mikelancelo uzun ömür sürmüş, mürəkkəb bədii inkişaf yolu keçmişdir. Onun ilk əsərləri hələ kvatroçento dövrünün son onilliyində yaradılmışdı, onun ən görkəmli əsərləri inkveçento dövrünün “qızıl əsərinə” aiddir, ömrünün son mərhələsi İntibahın tənəzzülü dövrünə təsadüf edir.
Mikelancelo ömrünün yalnız ikinci yarısında, 1517-ci ildən memarlıqla məşğul olmağa başlayır. Bu zaman o, artıq bir sıra heykəltəraşlıq və təsviri sənət əsərləri yaradaraq şöhrət tapmışdı. Memarlıq sahəsində Mikelancelonun ilk əsəri Florensiyada San Lorenso kilsəsinin inşasının başa çatdırılması və eyni zamanda genişləndirilməsi layihəsidir. Kilsənin fasadı üzərində Mikelancelo 1517-ci ildən 1520-ci ilə qədər işləyir. Lakin layihə həyata keçirilmir.
Renessans formalarının İspan incəsənətində meydana gəlməsini artıq XV əsrin ortalarından izləmək olar. Lakin yenilik izləri özünü ilk növbədə boyakarlıqda biruzə verir; memarlıq və heykəltəraşlıqda qotik elementlər saxlanılır.
XV əsrdən XVI əsrə keçid dövründə İspan mədəniyyətində mühüm dəyişiklik baş verir. Bu dövrdən başlayaraq yeni ideyalar və formalar incəsənətin bütün sahələrini – memarlığı, heykəltəraşlığı, boyakarlığı və tədbiqi sənəti əhatə edir. Bədii prosess böyük vahidlik cizgiləri əldə edir. Lakin nəzərdən keçirdiyimiz dövrdə İspan İntibah incəsənəti, XVI əsrin ilk onilliyində digər ölkələrdə formalaşmış Yüksək İntibah dövrü ilə müqaisə ediləcək yetkinlik səviyyəsinə çatmır. Bu dövr İspan incəsənətində hələm Erkən Renessans ənənələri üstünlük təşkil etmişdir.
Yeni üslubun ilk əlamətləri özünü Toledoda, memar Xuan de Quas tərəfindən inşa edilmiş San Xuan de los Reyos (1476) kilsəsinin interyerində biruzə vermişdir. Kilsənin zahiri görünüşü qotik ənənələrdə işlənmişdir. Lakin kilsənin geniş işıqlı interyerinə yenilik – gümbəzin altına mavritan motivli 8 güşəli ulduz daxil edilmişdir. Divarlar bütöv olaraq heykəltəraşlıq ornamentləri ilə bəzədilmişdir. Divar səthinin xalça kimi heykəltəraşlıq dekorasiyası ilə doldurulması, platersk üslubunun əsas xüsusiyyətidir.
Xuan de Qusun ən orijinal tikililərindən biri Qvadalaxaradaki İnfantado qersoqlarının sarayıdır (1480-1493). XVI əsrin 2-ci yarısında aparılan yenidən qurma işləri zəmanı binanın zahiri görünüşünə citdi zərər dəymişdir.
Digər marağlı tikilidə - Salamankdaki “Balıq qulağlı evdə” (1475-1483) evin sahibinin enblemləri – (rakovina) iri balıq qulağılar şahmat vəziyyətində divarın səthində yerləşdirilmişdir. Bu üsul binanın bütün həcminin təsirini gücləndirir.

PlatereskinyetkinmərhələsiXVI əsrinI-ciyarısınaaidedilir. İtalyan intibahının bədii mədəniyyətinin artan təsiri memarlıq sahəsində özünü biruzə vermişdir, lakinhəmdə onun obrazquruluşundaköklü dəyişikliklərə gətirməmişdir. Renessansınkonstruktivelementləribinanınplanvə konstruksiyasınınqotik əsaslarına çoxaztəsirgöstərmişdir. Əsasyeniliklərfasadkompozisiyası sahəsində baş vermişdir. Budövrdənbaşlayaraqtikililərinfasadları klassikmemarlıqvə heykəltəraşlıqformaları – orderelementləri, bitkiornamenti, çiçək çələngləri, medalyonlar, barelyeflər, portretbüstlərivə antikilahilərinheykəlləriilə bəzədilmişdir. XV əsr ərzində heykəltəraşlıqda kübar başlanğıc güclənir. XV əsrdə qəbirüstü abidələrin yaradılması geniş vüsət alır. Onlar üzərində həm memarlar, həm də heykəltəraşlar çalışır, özüdə sonunçuların rolu getdikcə daha da artır.

Qəbirüstü abidələrində mürəkkəb alleqorik formalarda vəfat etmişlərin obrazları əbədiləşdirilirdi. Buna misal olaraq Çijondaki ***Filip*** və ***İoan Burqundskilərin***, ***Filip Ponun*** (1477-1483, Luvr) məqbərələrini göstərmək ola. Onlar öz sərtliyi və möhtəşəmliyi ilə fərqlənir.

Kilsəslərin bəzədilməsində heykəltəraş öz həyatiliyi ilə fərqlənən madonnaların, müqəddəslərin, carmıxa çəkilmə və ağlaşma səhnələrinə müraciət edirlər ("Madonna körpə ilə", Tuluz, muzey). Onlar içərisində öz dramatikliyi ilə fərqlənən, məlum olmayan Fransız sənətkarı tərəfindən yaradılmış Solem abbatlığındaki ***"Tabuta qoyulma"*** (1496) qrupunu qeyd etmək lazımdır.

XV əsr Fransa heykəltəraşları içərisində ən istedalısı **Mişel Kolomb (1430-1512)** olmuşdur. Fransız plastikasında renessansın əsil binövrəçisi hesab edilən bu sənətkar ölkənin mərkəzi bölgələri və ilk növbədə Tur şəhəri ilə bağlı idi. İtalyan İntibahının mədəniyyətini özünəməxsus istifadə edən bu sənətkar öz abidələrinin dekorasiyasına antik motivlər daxil edir və ən vacibi, ruh və xasiyyət baxımından yeni olan obrazlar yaradır. Buna misal olaraq heykəltəraşın ***"Müqəddəs Qeorqinin əjdaha ilə döyüşü"*** (1508-1509, Qayyon gəsri üçün düzəldilmişdir; indi Luvrdadır) adlı relyefini göstərmək olar. Relyef gözəl renessans ornamenti ilə əhatə olunmuşdur. Realistik formalarda sənətkar qaçan atı, əjdaha ilə döyüşə girmiş atlının süçayətini və güçünü vermişdir.

Kolomb ölümə gəhraman münasibət bəslənən və vəfat etmişi şöhrətləndirən məqbərə tipinin yaradıcılarından biri olmuşdur. Bu tendensiyalar onun kapital əsəri olan ***II Fransisk Bretonskinin*** və onun ***arvadı Marqarita de Fuanın*** (1502-1507, Nantedəki kilsə) məqbərəsində ifadə olunmuşdur. Heykəltəraş burada Renessans dekorasiyasının elementlərindən – pilyastrlardan, ornamentlərdən istifadə etmişdir. Lakin bu cizgilər yox, insan obrazlarının xasiyyəti Fransız plastikasında yeni mərhələnin başlandığına işarə edir. Hersoqun və onun həyat yoldaşının fiqurları sakit-təmtərağlıdır, sifətlərinin cizgiləri cittidir. Həcimli sarkofaqın künclərində dayanan 4 alleqorik fiqurlar – ***"Güc"***, ***"Umerennost"***, ***"Ədalət"*** və "***Ağıllı düşünmə"*** böyük dəqiqliklə işlənmişdilər. Kolomb yaradıcılığı onun şagirdlərinin yaradıcığına böyük təsir göstərmişdir.)

Boyakarlıq və qrafika ilə yanaşı, XVI əsrdə Fransada heykəltəraşlıq da yüksək inkişaf edir. Baxmayaraq ki Fransaya hökmdarların və zədəganların dəvəti ilə çoxsaylı İtaliya heykəltəraşları (F. Lauran – çar Rene Anjuyskinin sarayında çalışmış, Qvido Matsoni hazırda dağıdılmış VIII Karlın qəbirüstünü yernə yetirmişdir), o cümlədən digər sənətkarlar çalışırdı, Fransa İntibahının ən möhtəşəm heykəltəraşlıq əsərləri Fransız heykəltəraşları tərəfindən yaradılmışdır. Dekorativ heykəltəraşlıqla və qəbirüstü abidələrlə yanaşı bu dövrdə dairəvi dəzgah plastika əsərləri – heykəllər və portret büstlərin yaradılması da geniş vüsət alır. Onlar kübar məzmunun ortaəsrlər dini məzmun üzərində tam qələbə çaldığına işarədir.

XVI əsr Fransa plastikasının ən istedalı sənətkarlarından biri də **Jan Qujon** (1510-1566-68) olmuşdur. O hərtərəfli istedada milik olan bir insan idi. Belə ki o, gözəl dekorator və memar, rəsm və qravyura üstası olmuşdur. Lakin onun əsas nailiyyətləri heykəltəraşlıq sahəsində əldə edilmişdir.

Dövrümüzə kimi sənətkarın çox az işi gəlib çatmışdır. O ilk növbədə Ruan kilsəsindəki Lui de Brezenin (1535) qəbirüstünün müəllifi sayılır. Bundan başqa, Qujon bir sıra memarlıq tikililərinin tərtibatında iştirak etmişdir. Belə ki, o *Sen Jermen Lokserua kilsəsini* (1544-1545) bəzəyən ***"İsanın çəzanəsi üzərində ağlaşma"*** və "***Dörd yevanqelist"*** barelyeflərini yaratmışdır.

Qujonun ən yüksək nailiyyətlərindən biri – ***Nimf Fəvvarəsinin relyefləridir*** (Günahsızlar Fəvvarəsi, Paris – 1547-1549). Bu əsasən təbiət güvvələrini simvolizə edən, müqəddəslərin təsvirləridir.

Qujon həmçinin *Ane gəsrinin* fəvvarəsi üçün nəzərdə tutulmuş ***Diana heykəlinin*** (1558-1559, Luvr) müəllifi hesab edilir. Gözəl çılpaq ilahə, onun yanında verilmiş maralın boynunu quçağlayaraq, yarımuzanmış vəziyyətdə verilmişdir. Hesab edilir ki, Diananın sifəti çar II Qenrixin

sevgilisi Diana Puatyenin sifətidir. Bu heykəldə çılpaq qadın fiqurunu təsvir edərək, heykəltəraş insan gözəlliyini tərnnüm edir.

Bu əsərə ***"Venera və Amur"*** adlı çox böyük olmayan relyef yaxındır. Sənətkarın son əsərləri içərisində Luvrun heykəltəraşlıq dekorasiyaları nəzərə çarpır. Onlar üzərində o, 1548 – 1562-ci illər ərzində çalışmışdır.

XV əsrin sonu – XVI əsrin əvvəlləri İspan heykəltəraşlığı memarlıqla sıx bağlı olmuş və onunla birgə inkişaf etmişdir. İsabelino dövrü öz parlaq ifadəsini İspan heykəltəraşlığının ən orijinal sənətkarlarından biri olan **Xil de Siloyenin** (1486-1505 illər ərzində çalışıb) yaradıcılığında tapmışdır. İzabella Katoliçeskinin valideyinlərinin – çar II Xuanın və onun həyat yoldaşının məqbərəsini 8 güşəli ulduz şəklində yaratmış bu sənətkar onları heykəllərlə bəzəmişdir. Formaların ajurluğu, ornamental naxışın zənginliyini, ağ alebarstrdan yernə yetirilmiş məqbərənin bütün detalarını fərqləndirir. Burda da qotik və mavritan motivləri vahid fantastik incələşdirilmiş obrazlarda birləşdirilir.

Tədricən mərmərdən inşa edilmiş məqbərələrin tərtibatında renessans motivlərindən istifadə edilir. Bəzədilmədə əsasən medalyonlardan, barelyeflərdən, çiçək çələnglərindən istifadə edilmişdir. Hərdən tərtibatda klassik order sistemindən də istifadə olunurdu. Lakin İspaniya sənətkarları bir çoxu elementləri özünəməxsus qavramış və təsvir etmişdir. Daş və mərmərdə çalışaraq, onlar böyük həvəslə boyanmış taxta heykəllər də yaratmışdılar.

Yetkin plateresk dövrünün istedadlı sənətkarları **Felippe de Borqonya** ( 1543-vəfat edib) və **Damian Forment** (1480-1543) olmuşdular. Borqonyanın yernə yetirdiyi *Qranadakiçar* ***kapellasının polixrom alebastr retablosu*** (1521) dini süjetlərlə yanaşı, tarixi mövzulu relyeflər də bəzədilmişdir.

XVI əsrin I-ci yarısında İspan absolütizminin tam formalaşması, kolonial ekspansiyanın və aktiv işğalılıq siyasətinin güclənməsi ilə müşahət olunurdu. İspan çarı I Karl Qabsburq 1519-cu ildə Alman imperatoru V Karlın tacını vəsiyyət kimi qəbul edir. Bu andan İspaniya böyük imperiyaya çevrilir. Onun tərkibinə İspan torpağları ilə yanaşı Almaniya, Niderland, İtaliyanın bir hissəsi və Amerikadaki koloniyalar daxil idi. XVI əsrin I-ci yarısı ərzində ölkənin siyasi və iqtisadi yüksəlişi davam edir. XVI əsrin əvvəllərində İspan mədəniyətinə İtaliyanın təsiri artır. İspaniya və İtaliya arasında diplomatik, ticarət və mədəni əlagələr genişlənir. İspaniyada, digər ölkələrdə olduğu kimi, hökmdar sarayına İtalyan sənətkarları dəvət edilirdi. Bir çox İspan sənətkarları İtalyan memarları, heykəltəraşları, boyakarları yanında təhsil almış və İtaliyada çalışmışdılar.

Heykəltəraşlıq və boyakarlığın evolüsiyası daha mürəkkəb şəraitdə keçmişdir. XVI əsrin I-ci yarısı İspan heykəltəraşlığı, boyakarlıqdan fərqli olaraq daha orijinal və parlaqdır. Bu dövrdə **Diyeqo de Siloye** (1495-1563), **Bartolomeo Ordonyes** (1520-ci ildə vəfat edib), Pedro Berruqetenin öğlu və şagirdi – **Alonso Berruqete** (1490-1561) çalışmışdılar.

Diyeqo de Siloye və Bartolomeo Ordonyesin əsərlərində Renessans məktəbi hiss olunur. Onların hər ikisi İtaliyada yaşamışdır. Vətənində Ordonyes V Karın sifarişi ilə onun valideynlərinin – Ğözəl Filippin və Ağılsız Xuanın (1513; Qranadaki hökmdar kapellası) məqbərəsini yaradır.

**Alonso Berruqete** çox istedadlı sənətkar olmuşdur: baş heykəltəraş olmaqla yanaşı o eyni zamanda boyakar kimi də tanınmışdır. Onun gəncliyi İtaliyada keçmişdir. Burda o, Mikelancelodan təhsil almış və antik heykəlləri kopiya etmişdir. Sənətkarın yaratdığı mühüm əsərlər içərisində "Avraamın qurban gətirməsi", "Müqəddəs Sebastyan" heykəllərini, "Moisey" relyefini və digər əsərlərini xüsusən vurğulamaq lazımdır.

Digər İspanheykəltəraşı **Xuan de Xuni** (1507-1577) də İtaliyada təhsil almışdır. Onun bəzi obrazları bədii gözəlliyi ilə fərqlənir: "Müqəddəs ana xəncəl ilə", çoxfiqurlu kompozisiya "Tabuta qoyulma" (1540) və digərləri.

**Nəticə**

Renessans formalarının İspan incəsənətində meydana gəlməsini artıq XV əsrin ortalarından izləmək olar. Lakin yenilik izləri özünü ilk növbədə boyakarlıqda biruzə verir; memarlıq və heykəltəraşlıqda qotik elementlər saxlanılır.

XV əsrdən XVI əsrə keçid dövründə İspan mədəniyyətində mühüm dəyişiklik baş verir. Bu dövrdən başlayaraq yeni ideyalar və formalar incəsənətin bütün sahələrini – memarlığı, heykəltəraşlığı, boyakarlığı və tədbiqi sənəti əhatə edir. Bədii prosess böyük vahidlik cizgiləri əldə edir. Lakin nəzərdən keçirdiyimiz dövrdə İspan İntibah incəsənəti, XVI əsrin ilk onilliyində digər ölkələrdə formalaşmış Yüksək İntibah dövrü ilə müqaisə ediləcək yetkinlik səviyyəsinə çatmır. Bu dövr İspan incəsənətində hələm Erkən Renessans ənənələri üstünlük təşkil etmişdir.

Ən mühüm nailiyyətlər İspan incəsənətində XVI əsrin 2-ci yarısında əldə edilmişdir. Bu dövr müxtəlif bədii tendensiyaların toqquşduğu bir dövrdü. Ümumiyyətlə bu dövr İntibah mərhələsinin başa çatdığı və XVII əsr mədəniyyətinə keçid mərhələsidir. Nəzərdən keçirdiyimiz dövrdə İspan boyakarlığında son Renessansın faciəli böhran cizgiləri daha kəskin əks olunmuşdur.

**ƏDƏBİYYAT**

1. Bayramov H. Azərbaycan dili frazeologiyasımn əsasları. Bakı: Maarif, 1978, 174 s.
2. Əlizadə Z. Atalar sözlərinin həyatı. B., Yazıçı, 1985, 243 s.
3. Həmidov İ., Axundov B., Həmidova L. Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi-məsəllər lüğəti. Bakı, “Təhsil”, 2009, 560 s.

***Azərbaycan Dövlət Pedaqoji Universitetinin**
***“Təsviri incəsənət və OTT” kafedrasının baş müəllimi***

**Samira Aliyeva**

**MEDIEVAL SCULPTURE IN ITALY AND FRANCE**

In the article, the medieval sculpture of the European countries was widely studied. The role of Brunelleschi, the Florentine school of sculpture, in medieval sculpture is examined. The author came to the conclusion that the creation of a human or any animal image in medieval sculpture has limited possibilities compared to painting and graphics.

**Keywords:** *sculpture, Florence, Brunelleschi, Middle Ages, graphics*

**Самира Алиева**

**СРЕДНЕВЕКОВАЯ СКУЛЬПТУРА В ИТАЛИИ И ВО ФРАНЦИИ**

В статье широко изучена средневековая скульптура европейских стран. Рассматривается роль Брунеллески — флорентийской школы скульптуры — в средневековой скульптуре. Автор пришел к выводу, что создание образа человека или любого животного в средневековой скульптуре имеет ограниченные возможности по сравнению с живописью и графикой.

**Ключевые слова:** *скульптура, Флоренция, Брунеллески, Средневековье, графика.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 19.10.2025**

**Son daxilolma tarixi:12.11.2025**